

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 181 (21.333)

*16 sentyabr 2015-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də – Bilik Günündə Bakının Sabunçu rayonunda əsaslı şəkildə yenidən qurulan 148 nömrəli tam orta məktəbin açılış mərasimində iştirak edib.

Dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsib.

Məktəbdə yaradılan şəraitlə tanışlıqdan sonra Prezident İlham Əliyev təhsil ocağının müəllim və şagirdləri ilə görüşüb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Rusiya Federasiyasının səhiyyə naziri xanım Veronika Skvortsovanı qəbul edib.

Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən səhiyyə sahəsində inkişaf etdiyi bildirilib və bu sahədə əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 14 sentyabr tarixli Sərəncamı ilə 2015/2016-cı tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş bir qrup tələbəyə Prezident təqaüdü verilmişdir. Həmin tələbələr arasında Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərinin məzunları da vardır:

Allahverdiyev Əli Allahverdi oğlu
Cəfərov Elşən Eldəniz oğlu
Əlizadə Bətulə Mahir qızı
Həsənov İmamverdi Rövşən oğlu
İsmayılova Təranə Xudaverdi qızı
Nəcəfov Hüseyn Məzahir oğlu
Nəcəfov Kərim Cabbar oğlu
Orucova Ləman Mikayıl qızı

# “Naxçıvan” Universiteti üçün yeni universitet şəhərciyi istifadəyə verilmişdir



Sentyabrın 15-də – Bilik Günündə “Naxçıvan” Universiteti üçün inşa olunan yeni universitet şəhərciyi istifadəyə verilmişdir.

Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yeni təhsil ilinin başlanması – Bilik Günü münasibətilə muxtar respublikanın bütün ümumtəhsil, ali, orta ixtisas və peşə təhsili məktəblərinin şagird və tələbələrini, Heydər Əliyev adına Hərbi Liseyin kursantlarını və pedaqoji kollektivləri, “Naxçıvan” Universitetinin kollektivini isə həm də yeni universitet şəhərciyinin istifadəyə verilməsi münasibətilə təbrik edərək demişdir: Hər bir cəmiyyətdə təhsil mühüm rola malikdir. Vaxtilə təhsilin cəmiyyətdəki rolundan danışan görkəmli yazıçı və ictimai-siyasi xadim Nəriman Nərimanov qeyd edirdi ki, heç bir millət qılınc və tüfənglə qabağa getməyibdir. Yalnız elmin və təhsilin gücünə tərəqqi etmək mümkündür. Bu gün bu fikirlərdəki həqiqətlər bir daha özünü göstərir. Müasir dünyada o dövlət güclü hesab olunur ki, onun güclü təhsil potensialı olsun. Amerika Birləşmiş Ştatlarının politoloqları deyirdilər ki, “Amerika Universitetləri güclüdür, ona görə yox ki, Amerika varlıdır. Amerika varlıdır, ona görə ki, onun Universitetləri güclüdür”.

Ali Məclisin Sədri demişdir: Hər il təhsil sahəsində həyata keçirilən tədbirlər qarşıda duran məqsədlərə daha da yaxınlaşmağa imkan yaradır. Bu gün Azərbaycan təhsilinin bəhrələri göz qabağındadır. Vətənpərvər, dövlətçiliyə və xalqa sədaqətli gənc nəsil yetişdirilir. Dayanıqlı inkişafın əsas təminatı olan insan kapitalı formalaşdırılır. Muxtar respublikanın şəhər, rayon, qəsəbə və kəndlərində müasir təhsil infrastrukturu, informasiya texnologiyalarına əsaslanan təhsil sistemi qurulur. Distant və elektron tədris tətbiq olunur.

Qeyd etmək lazımdır ki, görülən işlər tarazlı şəkildə təhsilin bütün pillələrini – ümumtəhsil, peşə və orta ixtisas təhsili sahələrini, eləcə də ali təhsil sistemini əhatə etmişdir. Son illər muxtar respublikanın ali təhsil müəssisələri üçün yeni binalar tikilmiş, müasir tədris şəraiti yaradılmışdır. Bu gün “Naxçıvan” Universitetinin yeni universitet şəhərciyinin istifadəyə verilməsi də təhsil sahəsində görülən işlərin tərkib hissəsidir. Hazırda muxtar respublikanın ali və orta ixtisas üzrə 8 mindən artıq tələbə təhsil alır.

Ali Məclisin Sədri demişdir: Biz bu gün ali və orta ixtisas təhsili müəssisələrində oxuyan gənclərimizə baxarkən qürur duyuruq. Ona görə ki, onlar sabahımızın etibarlı təminatçılarıdır. Bu gün fürsətdən istifadə edərək bizi narahat edən bir məsələni də diqqətinizə çatdırmaq istəyirəm. Son vaxtlar ali məktəblərə qəbulla əlaqədar “müəyyən şəxslər” insanlar üçün bu həssas məsələdən sui-istifadə edərək qəbul imtahanlarında 0-100 arası bal toplayan və ya orta ümumtəhsil sənədi olan gəncləri qeyri-qanuni yolla bəzi xarici ölkələrdəki ali məktəblərə təşviq edərək asan qazanc götürmək istəyirlər. Təəssüf ki, bəzi gənclər və valideynlər də belə “şəxslərə” inanırlar. Onların nəzərinə çatdırmaq istəyirik ki, ölkəmizdə və xaricdə ali və orta ixtisas təhsili məktəblərinə qəbul yalnız bir yolla – Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının xətti ilə aparılır. Bundan kənarda ölkəmizdə və xaricdə ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu qeyri-qanunidir.

Bu cür “şəxslərin” yalan vədlərinin təsiri altına düşən gənclər və onların valideynləri bilməlidirlər ki, Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının xətti ilə ali və orta ixtisas təhsili məktəblərinə qəbul olunmayan gənclərin saxta yolla xarici ölkələrdə aldıqları diplomun ölkəmizdə hüquqi qüvvəsi yoxdur. Bu diplomların sahibləri heç bir dövlət orqanında və təşkilatda işlə təmin oluna bilməyəcəklər. Qanunsuz yolla ali təhsil haqqında əldə edilmiş belə sənədin həqiqi adı isə – itirilmiş illər və vəsaitlərdir.



Ümummilli liderimiz Heydər Əliyevin ***“Ölkə üçün, xalq üçün gənclik hər şeydən qiymətlidir. Gəncin sağlam böyüməsi, yaxşı təhsil alması hər bir millətin, xalqın ən dəyərli sərvətidir. Çünki o, millətin, xalqın gələcəyidir, millətin, xalqın daimiliyidir, əbədiliyidir”***, – fikirlərini diqqətə çatdıran Ali Məclisin Sədri demişdir: Yaxşı təhsil almaq, peşə, sənət sahibi olmaq hər bir gəncin arzusudur. Ali təhsil almaq yalnız müxtəlif elm sahələri üzrə bilikləri mənimsəməkdən, yaxud da diplom sahibi olmaqdan ibarət deyil. Ali təhsil gənclərin ölkə və xalq üçün layiqli vətəndaş və mütəxəssis kimi yetişməsi yolunda mühüm mərhələdir. Hər bir gənc çalışıb ona nail olmalıdır ki, gələcəkdə təhsil aldığı sahələr üzrə ixtisaslı kadr kimi yetişsin. Bu işdə ali və orta ixtisas təhsili müəssisələrinin müəllim heyətinin də üzərinə mühüm vəzifələr düşür. Müəllimlər təhsil verməklə yanaşı, həm də vətənpərvər gənclər yetişdirməlidirlər. Tələbə gənclərdə Azərbaycan xalqının tarixinə, dilinə, adət-ənənələrinə və milli dəyərlərinə sahiblik hissi aşılanmalı, onlar gələcək həyata ailə, cəmiyyət və dövlət qarşısında öz məsuliyyətini dərk edən, müstəqil və yaradıcı düşünən vətəndaşlar kimi hazırlanmalıdırlar.

Qeyd olunmuşdur ki, təhsilin yüksək intellektual bacarığa malik insan kapitalı formalaşdırmaqda və güclü iqtisadiyyat qurmaqda oynadığı rol həmişəki kimi, bu gün də aktualdır. İnformasiya və biliyə əsaslanan cəmiyyətin, inkişaf edən iqtisadiyyatın tələblərinə cavab verən insan kapitalını yaratmaq üçün təhsil sisteminin səmərəli olmasına çalışmalıyıq. Təhsil isə o zaman səmərəli olur və nəticə verir ki, o, əməli fəaliyyətə çevrilsin. Universitetlərdə, orta ixtisas və peşə məktəblərində, hərbi liseydə təhsil alan gənclər gələcəkdə cəmiyyət həyatının müxtəlif sahələrində ixtisaslı kadrlar kimi çalışmalı, bilik və bacarıqlarını ölkəmizin inkişafına sərf etməlidirlər.

Ali Məclisin Sədri yeni təhsil ilində muxtar respublikanın tələbə gənclərinə və təhsil kollektivlərinə uğurlar arzulamış, bir daha onları Bilik Günü münasibətilə təbrik etmişdir.

Tədbirdə “Naxçıvan” Universitetinin rektoru, pedaqogika üzrə elmlər doktoru İsmayıl Əliyev çıxış edərək demişdir ki, universitet üçün yaradılan müasir təhsil şəraiti muxtar respublikada bu sahəyə göstərilən qayğının nəticəsidir. 1999-cu ildən fəaliyyət göstərən universitetdə hazırda 4 fakültə, 9 kafedra, 5 şöbə vardır. 2015-2016-cı tədris ilində universitetdə minə yaxın tələbə təhsil alacaqdır. İndiyədək universitetin 3245 məzunu olmuşdur. Bu tədris ilində universitetdə 13 ixtisas üzrə mütəxəssis hazırlığı aparılacaqdır. Universitetdə təhsilin keyfiyyəti yüksəldilir, ixtisas fənləri üzrə elmi dərəcəsi olan müəllimlərə üstünlük verilir, tədris zamanı müasir təlim texnologiyalarından istifadə diqqətdə saxlanılır.

Rektor qeyd etmişdir ki, ötən tədris ilində universitetdə 43 elmi-tədqiqat işi yerinə yetirilmiş, Tələbə Elmi Cəmiyyətinin xətti ilə 110 tələbə elmi axtarışlara cəlb edilmişdir. Bu dövrdə universitet əməkdaşları tərəfindən 10 kitab, 132 elmi məqalə və 2 tezis hazırlanaraq nəşr edilmişdir. “Naxçıvan” Universitetinin beynəlxalq əlaqələri də genişləndirilmişdir. Dünyanın məşhur ali təhsil müəssisələrindən olan Almaniyanın Lüdviq Maksimillians Universiteti ilə, son dövrlərdə isə Türkiyənin 9, eləcə də Rumıniya, Çexiya və Latviya universitetləri ilə əlaqələr yaradılmış, bununla da universitetin əməkdaşlıq etdiyi universitetlərin sayı 51-ə çatmışdır. İsmayıl Əliyev “Naxçıvan” Universiteti üçün yaradılan şəraitə görə professor-müəllim heyəti və tələbələr adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Universitetin Xarici dillər fakültəsinin Xarici dil müəllimliyi ixtisası üzrə birinci kurs tələbəsi Fəridə Əhmədova demişdir ki, muxtar respublikada təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir informasiya texnologiyaları, dərslik və bədii ədəbiyyatlarla zənginləşdirilməsi gəncləri daha yaxşı oxumağa ruhlandırır.

*Ardı 2-ci səhifədə*



Bu gün muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrində gənclərin elmli və dünyagörüşlü, intellektli və fiziki cəhətdən sağlam böyüməsi üçün hərtərəfli şərait yaradılmışdır. Buna görə də abituriyentlər ixtisas seçimi zamanı Naxçıvanda yerləşən ali və orta ixtisas təhsili müəssisələrinə üstünlük verirlər. "Naxçıvan" Universitetinin tələbəsi olmaq mənim ən böyük arzum idi. İxtisas seçimində "Naxçıvan" Universitetinin Xarici dil müəllimliyi ixtisasını seçdim və bu ixtisasa qəbul olundum. Düşünürəm ki, bu gün açılışına toplaşdığımız "Naxçıvan" Universitetini seçməklə ən düzgün seçimimi etmişəm. Universitetin maddi-texniki bazasının dünyanın ən qabaqcıl universitetlərinin standartlarına uyğunluğu burada daha mükəmməl təhsil almağımıza şərait yaradacaqdır. Fəridə Əhmədova tələbələr adından söz vermişdir ki, yaradılan şəraitdən səmərəli istifadə edərək Azərbaycan üçün layiqli vətəndaş və mütəxəssis kimi yetişəcəklər.

"Huawei Texnologies Azərbaycan" Məhdud Məsuliyyətli Cəmiyyətinin baş direktoru Liu Jiavel müasir dövrdə informasiya texnologiyalarının təhsildə geniş tətbiq olunduğunu bildirmiş, Naxçıvanda bu sahədə həyata keçirilən tədbirləri yüksək qiymətləndirmişdir. "Naxçıvan" Universitetində Huawei İnformasiya-Kommunikasiya Texnologiyaları Akademiyasının yaradılmasının qərara alındığını bildirən Liu Jiavel akademiyanın sertifikatını "Naxçıvan" Universitetinə təqdim etmişdir.





Tədbirdə Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikasının ali təhsil müəssisələrinə yüksək balla qəbul olunan və təhsildə fərqlənən 45 tələbəyə noutbuklar hədiyyə etmişdir. "Huawei Texnologies Azərbaycan" Məhdud Məsuliyyətli Cəmiyyətinin baş direktoru da bir qrup tələbəyə hədiyyələr təqdim etmişdir.





Sonra Ali Məclisin Sədri açılışı bildirən lenti kəsmiş, "Naxçıvan" Universitetində yaradılan tədris şəraiti ilə tanış olmuşdur.

Bildirilmişdir ki, universitet şəhərciyinə rektorluq binası, 2 tədris korpusu, kitabxana, sosial xidmət mərkəzi, yataqxana, idman və konfrans zalları daxildir. 3 mərtəbəli rektorluq binasında hər şöbə üçün ayrıca iş otaqları, arxiv və bufet yerləşir. Otaqların hər biri zəruri avadanlıqlarla təchiz edilmiş, elektron idarəetmə sistemi yaradılmışdır. Yeni sistem vasitəsilə bütün kafedra və bölmələrin işinə nəzarət etmək və elektron sənəd mübadiləsi aparmaq mümkündür.

6 mərtəbəli birinci tədris korpusunda universitetin İdarəetmə, İqtisadiyyat və Pedaqogika fakültələri fəaliyyət göstərəcəkdir. Tədris korpusunda 34 auditoriya, hər birində 66 kompüter olan 2 imtahan mərkəzi, proyektor və elektron lövhə quraşdırılan 11 mühazirə zalı, Heydər Əliyev Dövlətçilik Mərkəzi, Coğrafiya, Azərbaycan tarixi, Turizm-informasiya kabinələri, informatika, informasiya sistemləri, texnologiya, server, nəşriyyat və digər otaqlar vardır. Binada elektron təhsilin tətbiqi üçün müasir infrastruktur yaradılmışdır. İmtahan mərkəzlərinin müasir texnoloji sistemi eyni vaxtda bir neçə ixtisas üzrə imtahanların çevik və şəffaf formada aparılmasına, imtahanların gedişini internet üzərindən izləməyə, eləcə də onların video arxivini yaratmağa imkan verəcəkdir. Kompüter otaqlarının hər birində 14 kompüter dəsti və elektron lövhələr quraşdırılmış, sürətli internetə çıxış təmin edilmişdir. Universitet mətbəəsi də ən müasir çap avadanlıqları ilə təchiz olunmuşdur.

Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin gənc nəslə öyrədilməsi vacib məsələdir. Universitetdə fəaliyyət göstərən Heydər Əliyev Dövlətçilik Mərkəzi bu baxımdan mühüm rol oynayır. Mərkəzdə ümummilli liderimizin həyatı və çoxşaxəli fəaliyyəti, zəngin dövlətçilik irsi, müəllifi olduğu inkişaf strategiyası tələbə gənclərə öyrədiləcəkdir. Dahi şəxsiyyətə həsr olunmuş kitabların, filmlərin və digər materialların qoyulduğu mərkəzdə Heydər Əliyev lektoriyaları, ulu öndərə həsr olunmuş konfrans və seminarlar keçiriləcəkdir.

Baxış zamanı Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun universitetin Heydər Əliyev Dövlətçilik Mərkəzi ilə əlaqələrinin gücləndirilməsi, tələbələrin iştirakı ilə müxtəlif layihələrin həyata keçirilməsi, ulu öndərin dövlətçilik fəaliyyətinin gənc nəslə hərtərəfli öyrədilməsi ilə bağlı tapşırıqlar vermişdir.

Turizm informasiya kabinəsində Naxçıvanın turizm imkanları araşdırılacaq, turizm obyektləri haqqında məlumatlar veriləcəkdir. Yaradılan şərait tələbələrə muxtar respublikanın turizm obyektləri, zəngin təbiəti ilə yaxından tanış olmasına, onlar haqqında bukletlər, müxtəlif tanıdıcı materiallar hazırlamalarına, Naxçıvanda turizmin nəzəri və təcrübi əsaslarla öyrənilməsinə imkan verəcəkdir.

Azərbaycan tarixi kabinəsində muxtar respublika ərazisində aşkarlanmış ən qədim və orta əsrlərə aid maddi mədəniyyət nümunələri və ədəbiyyatlar qoyulmuşdur. Coğrafiya kabinəsində isə muxtar respublikanın təbiəti, torpaq ehtiyatları haqqında materiallar toplanmış, mineralların tərkibini müəyyən edən elektron mikroskop və müxtəlif süxur nümunələri qoyulmuşdur.

Ali Məclisin Sədrinə məlumat verilmişdir ki, universitetdə biliklərin təcrübə əsasında möhkəmləndirilməsinə xüsusi diqqət yetirilir. Bank işi, biznes mərkəzi və otelçilik kabinələri müvafiq ixtisaslar üzrə təhsil alan tələbələrə praktik iş vərdişlərinin öyrədilməsinə imkan verir. Əl işləri qalereyasında universitetin müəllim və tələbələrinin rəsm əsərləri, müxtəlif əl işləri nümayiş etdirilir. Universitetin Kompüter Səviyyə Ölçmə Mərkəzində isə tələbələr üçün kompüter kursları təşkil olunacaq və kursu uğurla bitirən tələbələrə sertifikatlar veriləcəkdir. Bu sertifikatlar dünyanın 150 ölkəsində tanınır.

Binada 12 terabayt həcmində mərkəzi server quraşdırılmış, universitet şəhərciyindəki bütün binalara fiber-optik kabel xətti çəkilmişdir. Mərkəzi server təhlükəsizlik proqramları ilə təchiz olunmuşdur. Huawei İnformasiya Kommunikasiya Texnologiyaları kabinəsində isə tələbələrə şirkətin istehsal etdiyi məhsulların istifadə qaydaları və ən son texnoloji yeniliklər öyrədiləcəkdir. Həyata keçirilən bu layihə çərçivəsində tələbələrin Huawei şirkətində bir ay müddətində təcrübə keçmələri də nəzərdə tutulub. Bu da informasiya texnologiyaları üzrə mütəxəssislərin hazırlanmasına imkan verəcəkdir.

Muxtar respublikada gənclərin xarici dil biliklərinin inkişafına xüsusi diqqət yetirilir. Universitetin xarici dillər korpusunda müxtəlif dünya dillərinin, xüsusilə İngilis, Alman və Ərəb dilinin nəzəri və praktik formada öyrədilməsi üçün müasir şərait yaradılmışdır. Burada multimedia sistemləri və 40 ədəd kompüterlə təchiz olunan 2 linqafon otağı, 20 kompüter quraşdırılan tərcümə mərkəzi, 2 mühazirə zalı, 24 auditoriya, 48 kompüteri olan imtahan mərkəzi və 2 kompüter otağı istifadəyə verilmişdir.

4 mərtəbədən ibarət olan universitet kitabxanasında 15 minə yaxın elmi və bədii ədəbiyyat vardır. Binada kitabxanaçılıq işi müasir tələblər əsasında qurulmuş, elektron dərslik və ədəbiyyatlar verilmişdir. Kitabxanada 6 bölmə, dissertasiya və avtoreferatlar zalı fəaliyyət göstərir. Hər bölmənin ayrıca fondu, oxu və informasiya zallarının olması uyğun materialların qısa zamanda oxucuya çatdırılmasına imkan verəcəkdir. Həmçinin oxucular informasiya zallarındakı kompüterlər vasitəsilə elektron kitabxanalardan və digər internet resurslarından istifadə edə biləcəklər. Binada şahmat zalı və gənclər mərkəzi də fəaliyyət göstərəcəkdir.

Ali Məclisin Sədri tələbələrin kitabxanaya cəlb olunmasının, kitabxana günlərinin və kitab müzakirələrinin keçirilməsinin vacibliyini vurğulamış, kitabxana fondunun elmi və bədii ədəbiyyatlarla zənginləşdirilməsini tapşırmışdır.

Konfrans və idman zalları üçün nəzərdə tutulan ikimərtəbəli bina müasir quruluşa malikdir. 240 yerlik konfrans zalında müasir audio-video və sinxron tərcümə sistemləri quraşdırılmış, proyektorlu elektron lövhə qoyulmuşdur. Bu da distant dərslərin təşkilinə imkan verəcəkdir. Geniş idman zalında isə

*Ardı 3-cü səhifədə*

voleybol, basketbol, badminton, futbol və digər idman növləri üzrə yarışların keçirilməsi mümkündür.

Universitetdə tələbələrin sosial-məişət şəraiti də yaxşılaşdırılmış, onların asudə vaxtlarının səmərəli təşkili üçün müvafiq tədbirlər görülmüşdür. Yeni istifadəyə verilən 302 yerlik yataqxana binasında otaqlar zəruri mebel avadanlıqları ilə təchiz olunmuşdur. İki girişi olan 6 mərtəbəli binada tələbələr üçün ən müasir yaşayış şəraiti yaradılmış, otaqların hər biri internetlə təmin olunmuş, məişət otağı, camaşırxana, mətbəx və istirahət otaqları istifadəyə verilmişdir. 3 mərtəbəli sosial xidmət mərkəzində ərzaq və geyim mağazaları, poçt, qadın gözəllik salonu, bərbərxana, kafe və yeməkxana tələbə və müəllimlərin istifadəsinə verilmişdir.

Universitet şəhərciyində video-nəzarət sistemi qurulmuş, ətrafda geniş abadlıq və yaşıllaşdırma işləri görülmüş, mini-futbol meydançası yaradılmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**



# Bilik Günü muxtar respublikada bayram əhval-ruhiyyəsi ilə qeyd olunub



**Naxçıvan şəhəri**

15 sentyabr – Bilik Günü münasibətilə Naxçıvan şəhərindəki 5 nömrəli tam orta məktəbdə keçirilən tədbiri Naxçıvan Şəhər Təhsil Şöbəsinin müdiri Hüseyn Məmmədyarov açaraq bildirib ki, bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda təhsilə böyük diqqət və qayğı göstərilir. Bu sahədə görülən işlərin nəticəsidir ki, son 20 ildə muxtar respublikamızda 200-ə yaxın təhsil müəssisəsi tikilərək və yaxud yenidən qurularaq müəllim və şagirdlərin istifadəsinə verilib. Təbii ki, görülən işlərdən paytaxt Naxçıvan şəhərinə də böyük pay düşüb. Hazırda Naxçıvan şəhəri üzrə 17 orta ümumtəhsil müəssisəsi fəaliyyət göstərir ki, onlardan da 16-sı yenidir.

Qeyd olunub ki, təhsil quruculuğu sahəsində görülən işlər təhsilin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına şərait yaradıb. Bunun nəticəsidir ki, hər il muxtar respublikamızın digər ümumtəhsil müəssisələrində olduğu kimi, Naxçıvan şəhərində fəaliyyət göstərən təhsil müəssisələrindən də ali məktəblərə qəbul olunan məzunların sayı artır. Bu il Naxçıvan şəhəri üzrə ali məktəblərə 365 nəfər qəbul olunub. Ümumi qəbul faizi 77,7 faiz təşkil edib. Məzunlardan 5 nəfəri Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülüb.

Bildirilib ki, yeni tədris ilində birinci siniflərə gedən şagirdlərin sayı 1200 nəfər təşkil edib.

Tədbirdə Naxçıvan Şəhər İcra Hakimiyyətinin, Təhsil Şöbəsinin əməkdaşlarının, 5 nömrəli tam orta məktəbin müəllimlərinin çıxışları olub. Çıxış edənlər pedaqoji kollektivi Bilik Günü münasibətilə təbrik edib, yeni tədris ilində hər kəsə uğurlar arzulayıblar.

* * *

**Babək rayonu**

***2015-2016-cı tədris ilinin başlanması münasibətilə sentyabrın 15-də Babək rayonunun da bütün orta məktəblərində Bilik Günü qeyd olunub.***

Azərbaycanda təhsilin inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin rəhbərliyi ilə ötən əsrin 70-ci illərindən başlayaraq təhsil sahəsində həyata keçirilən uzaqgörən və məqsədyönlü siyasət nəticəsində milli təhsilimiz davamlı inkişaf edib.

Bu fikirlər dünən Babək qəsəbə tam orta məktəbində keçirilən tədbirdə məktəbin direktoru Əli Hacıyev tərəfindən səsləndirilib.

Tədbirdə çıxış edən Babək Rayon İcra Hakimiyyətinin başçısı Elçin Hüseynəliyev Bilik Günü münasibətilə pedaqoji kollektivi, valideynləri və məktəbliləri təbrik edib, onlara təhsil sahəsində yeni-yeni uğurlar arzulayıb.

Qeyd olunub ki, son illər Azərbaycan təhsili yeni inkişaf dövrünə qədəm qoyub. Təhsildə uğurlu nəticələrdən biri məktəb tikintisinin geniş vüsət almasıdır. Bu iş muxtar respublikamızda, o cümlədən Babək rayonunda da uğurla həyata keçirilir.



Vurğulanıb ki, rayonda 36 ümumtəhsil, eyni zamanda 6 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərir. Bu il ali məktəblərə qəbul imtahanında daha yüksək göstəricilərə nail olunub. Belə ki, orta məktəbi bitirən 652 məzundan 498 nəfəri ali və orta ixtisas müəssisələrinə sənəd verib. Sənəd verənlərdən 262 nəfəri, yəni 52,6 faizi ali məktəblərə qəbul olunub. Bu da ötən illə müqayisədə 6,5 faiz çoxdur. Məzunlardan 46 nəfəri 500-700 intervalında bal toplayıb.

Babək qəsəbə tam orta məktəbinin uğurlarından bəhs olunaraq qeyd edilib ki, 2007-ci ildə yeni binası istifadəyə verilən məktəb hər il yaxşı nəticələr göstərir. 2014-2015-ci tədris ilində məktəbi 30 məzun bitirib. Onların 23-ü ali və orta ixtisas məktəblərinə sənəd verib. Sənəd verənlərdən 18 məzun ali məktəblərə daxil olub. Onlardan 4-ü yüksək bal toplayıb. Məktəbi bitirənlərdən 2 nəfəri isə orta ixtisas təhsili məktəblərinə qəbul olunub. Həmçinin 7 şagird ümumi orta təhsil bazasından orta ixtisas məktəblərinə qəbul olunub.

Valideynlər adından Bərxuda Muradov çıxış edərək muxtar respublikada təhsilə göstərilən qayğıya görə minnətdarlığını bildirib, bu gün birinci sinfə qədəm qoyan nəvəsinin belə gözəl bir şəraitdə təhsil alacağı üçün sevincli olduğunu deyib.

Sonra zəng çalınıb, şagirdlər siniflərə daxil olublar.

**Şərur rayonu**

*Ötən dərs ilini uğurlu nəticələrlə başa vuran Şərur rayonunun təhsil işçiləri 15 sentyabr – Bilik Gününü yüksək əhval-ruhiyyə ilə qeyd ediblər. Həmin gün rayonun bütün ümumtəhsil məktəblərində Bilik Gününə həsr olunmuş tədbirlər keçirilib.*



Bu münasibətlə Şərur şəhərindəki 1 nömrəli orta məktəbdə keçirilən tədbirdə çıxış edən rayon İcra Hakimiyyəti başçısının müavini Zəhra Bayramova və rayon Təhsil Şöbəsinin müdiri Zaur Həsənov qeyd ediblər ki, muxtar respublikamızda bütün sahələrdə olduğu kimi, təhsilə də xüsusi diqqət və qayğı göstərilir. Hər il bir neçə yaşayış məntəqəsində təzə məktəblər tikilir, yaxud əsaslı şəkildə yenidən qurulur, onların maddi-texniki bazası gücləndirilir. Bu mənada, Şərur rayonunda da ardıcıl tədbirlər həyata keçirilir. Yeni məktəblər müasir tələblərə cavab verən avadanlıqlarla və kompüterlərlə, elektron lövhələrlə təmin olunub, burada mərkəzləşdirilmiş istilik sistemləri quraşdırılıbdır. Bu ilin sonunadək daha 6 yeni ümumtəhsil məktəbi istifadəyə veriləcəkdir.

Nəzərə çatdırılıb ki, hazırda Şərur şəhərində Fizika-Riyaziyyat Təmayüllü Lisey üçün bina və 900 yerlik tam orta məktəb binası inşa olunur. Həmçinin Oğlanqala kəndində 468, Axaməddə 192, Yuxarı Yaycıda 234 yerlik yeni məktəb binaları yaxın vaxtlarda istifadəyə veriləcəkdir. Göstərilən bu qayğının müqabilində hər il olduğu kimi, ötən tədris ilində də rayonun pedaqoji kollektivləri uğurlu fəaliyyətlərini davam etdiriblər. Belə ki, bu il 664 tam orta məktəb məzununun 507 nəfəri ali məktəblərə qəbul üçün sənəd verib, onlardan 301 nəfəri müxtəlif ali məktəblərə qəbul olunublar. Keyfiyyət göstəriciləri də yüksək olub. Məzunlardan 47 nəfəri 400-500 arası, o cümlədən 15 nəfəri 500-700 arası bal toplayıb. Zeyvə kənd tam orta məktəbinin məzunu Əli Allahverdiyev 700, Kürkənddəki tam orta məktəbi bitirmiş Təranə İsmayılova 692, Alışar kənd tam orta məktəbinin yetirməsi Elşən Cəfərov isə 686 bal toplayaraq Prezident təqaüdünə layiq görülüblər.

Vurğulanıb ki, bu tədris ilində rayonda 56 ümumtəhsil məktəbi fəaliyyət göstərəcəkdir. İlkin rəqəmlərə görə, rayon üzrə I siniflərdə 1029, IX siniflərdə 814, XI siniflərdə 695 şagird təhsilini davam etdirir. Bütövlükdə, 9 min 225 şagird təhsilə cəlb edilib. Onların təlim-tərbiyəsi ilə 1500-dən artıq müəllim məşğul olacaqdır.

Çıxış edənlər məktəbin pedaqoji kollektivini və şagirdləri Bilik Günü münasibətilə təbrik edib, onlara cari dərs ilində daha böyük uğurlar arzulayıblar.

Şagirdlər yeni dərs ilinin başlandığını bildirən ilk zəngin sədaları altında siniflərə yollanıblar.

* * *

Məlum olduğu kimi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 14 aprel 2015-ci il tarixli Sərəncamına əsasən, Şərur şəhərində Fizika-Riyaziyyat Təmayüllü Lisey yaradılıb. Liseydə təhsil alacaq 160 nəfər şagird muxtar respublikamızdakı ümumtəhsil məktəblərinin VI-IX siniflərində təhsil alanlar arasından müsabiqə yolu ilə seçiliblər. Onların təlim-tərbiyəsi ilə xüsusi attestasiyadan keçmiş 25 müəllim məşğul olacaqdır.

Bu il Bilik Günü Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin tarixində də əlamətdar gün kimi yadda qalacaqdır. Çünki məhz bu gün lisey fəaliyyətə başlayıb və ilk şagirdlərini qəbul edib. Sentyabrın 15-də keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini Məmməd Qəribov, nazirliyin aparat rəhbəri Rəşad Quliyev, liseyin direktoru Çingiz Rzayev və valideyn Muxtar Məmmədov çıxış edərək respublikamızda təhsilə göstərilən qayğıdan, bu sahədə muxtar respublikamızda həyata keçirilən tədbirlərdən söhbət açıblar.

* * *

**Ordubad rayonu**

***Ordubad rayonu tarixən güclü təhsil ənənələrinə malik olan, bu gün də həmin ənənələri qoruyub saxlayan bölgələrimizdən biridir. Hər il olduğu kimi, bu il də rayonda Bilik Günü yüksək səviyyədə qeyd edilib, təhsil ocaqlarında tədbirlər keçirilib.***

Belə təhsil ocaqlarından birində, Ordubad şəhər 3 nömrəli tam orta məktəbdə Bilik Günü münasibətilə keçirilən tədbirdə məktəbin direktoru Əliağa Rzayev çıxış edərək deyib ki, bu il istifadəyə verilən, informasiya texnologiyaları və tədris avadanlıqları ilə təmin olunan məktəbdə dərslərin yüksək səviyyədə təşkili üçün geniş imkanlar var. Bu da kollektiv qarşısında mühüm vəzifələr qoyur. Əminliklə demək olar ki, ötən tədris ilində olduğu kimi, bu il də məktəbin müəllimləri yaradılan şəraitdən istifadə etməklə gənclərin hərtərəfli təhsil almasına, onların əsl vətəndaş kimi yetişdirilməsinə nail olacaq, göstərilən qayğıya qazanılan nailiyyətlərlə cavab verəcəklər.

Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov çıxış edərək yeni dərs ilinin başlanması münasibətilə müəllimləri, şagirdləri və valideynləri təbrik edib, təhsil sahəsində qazanılan uğurlardan danışıb.

Bildirilib ki, bu il birinci siniflərdə 537 şagird təhsil alacaq, dövlətimizin onlar üçün yaratdığı imkanlardan maksimum şəkildə bəhrələnəcəklər. Ümumiyyətlə, rayon təhsili üçün inkişaf dövrü sayılan son 20 ildə Ordubad məktəblərində təlim-tərbiyəsi etibar olunan uşaqların gələcək taleyi üçün yüksək mənəvi məsuliyyət nümayiş etdirən müəllim təbəqəsi formalaşıb. Bunun əsas səbəblərindən biri də müəllim əməyinə dövlətimiz tərəfindən verilən yüksək qiymətdir.



Vurğulanıb ki, ötən il rayon məktəblərini 376 şagird bitirib, 284 nəfər ali məktəblərə sənəd verib, 165 nəfər tələbə adını qazanıb. Bunlardan 6 nəfəri xüsusi təyinatlı məktəblərə daxil olub. Məktəbi bitirən şagirdlərdən 7-si qəbul imtahanlarında 600-dən yuxarı bal toplayıb. Ordubad rayonunun Aşağı Əylis, Dizə, Kotam, Çənnəb, Gilançay məktəbləri ali məktəblərə qəbulda 100 faiz nəticə göstəriblər. Rayonun Tivi kənd tam orta məktəbi də yüksək nəticə göstərən təhsil ocaqları sırasındadır. Bütün bu nailiyyətlər rayon təhsilinə göstərilən dövlət qayğısı, müəllimlərin əzmkar fəaliyyəti nəticəsində qazanılıb.

Tədbirdə Təhsil Şöbəsinin əməkdaşları və valideynlər çıxış ediblər.

***Ardı 4-cü səhifədə***

## Culfa rayonu



***15 sentyabr – Bilik Günü münasibətilə Culfa rayonunun ümumtəhsil müəssisələrində də tədbirlər keçirilib. Bu qəbildən tədbirlərdən birinin ünvanı Culfa şəhər 3 nömrəli tam orta məktəb olub.***

Tədbirdə çıxış edən rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev yeni dərs ilinin başlanması münasibətilə müəllim və şagird kollektivini, valideynləri təbrik edib.

Qeyd edilib ki, ötən tədris ilində rayonda 25 tam orta, 1 ümumi orta məktəb və 6 məktəbdənkənar müəssisə fəaliyyət göstərib, bu məktəblərdə 4890 şagirdin təlim-tərbiyəsi ilə 791 müəllim məşğul olub. Təhsilin informasiyalaşdırılması sahəsində əhəmiyyətli nailiyyətlər əldə edilib. Rayonun ümumtəhsil məktəblərinin hamısı internet şəbəkəsinə qoşulub, elektron dərs vəsaiti ilə təmin edilib.

Ötən tədris ilində rayonun təhsil müəssisələrinin qazandığı uğurlardan da söz açan Şükür Babayev bildirib ki, 2014-2015-ci tədris ilində 402 məzundan 305 nəfər ali məktəblərə qəbul olmaq üçün sənəd təqdim edib, onlardan 172 nəfəri ali məktəblərə, IX sinif bazasından isə 27 nəfər orta ixtisas məktəblərinə qəbul olunub. Bundan əlavə, tam orta təhsil bazasından 36 nəfər kolleclərə, 36 nəfər isə Heydər Əliyev adına Hərbi Liseyə qəbul edilib. Ali məktəblərə qəbul olan şagirdlərdən 31 nəfəri 500-600, 17 nəfəri 600-700 arasında bal toplayıb. Bütün bu göstəricilər rayonda təhsil sahəsində qazanılan nailiyyətlərdən xəbər verir. Yeni tədris ilində 4250-yə yaxın şagird rayonun 26 tam orta məktəbində təhsil alacaq. Onlardan 500-dən çoxu ilk dəfə olaraq məktəbə qədəm qoyur. Əminliklə demək olar ki, yeni dərs ili Culfa təhsilinə də yeni-yeni nailiyyətlər, uğurlar gətirəcək.

Sonra məktəbin birinci sinfinə qəbul edilmiş bir qrup şagird müəllim peşəsinə, Vətənə, məktəb illərinə aid şeirlər söyləyib, şagirdlər ilk zəngin sədaları altında məktəbə daxil olublar.

* * *

## Kəngərli rayonu

Kəngərli rayonunun Qıvraq qəsəbə tam orta məktəbində Bilik Günü münasibətilə keçirilən tədbiri rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikasında yeni məktəb binalarının tikilməsi, təhsil ocaqlarının maddi-texniki bazasının möhkəmləndirilməsi diqqət mərkəzində saxlanılır. Bunu Kəngərli rayonunun timsalında da görmək olar.

Rayonda 12 tam orta məktəb, 4 məktəbdənkənar müəssisə fəaliyyət göstərir. Məktəblərdən 11-i müasir bina ilə təmin edilib, Yudçu kənd tam orta məktəbinin binasında isə yenidənqurma və əsaslı təmir işləri davam etdirilir. Eyni zamanda 2015-ci ildə rayon Təhsil Şöbəsi və Uşaq-gənclər şahmat məktəbi üçün yeni bina inşa edilərək istifadəyə verilib.

Qeyd olunub ki, 2014-2015-ci tədris ilində rayonun ümumtəhsil məktəbləri üzrə XI sinfi bitirmiş 260 məzundan 193 nəfəri, yəni 74 faizi respublikanın ali məktəblərinə, IX sinif məzunlarından 28 nəfər orta ixtisas məktəblərinə, 62 şagird isə Heydər Əliyev adına Hərbi Liseyə sənəd təqdim edib. Məzunlardan 1 nəfər gümüş medala layiq görülüb. Qəbul imtahanlarının nəticələrinə görə, 93 nəfər müxtəlif ali təhsil müəssisələrinə, 20 nəfər orta ixtisas təhsili müəssisələrinə, 17 nəfər isə Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunub.

İcra başçısı Bilik Günü münasibətilə rayonun bütün pedaqoji kollektivlərini təbrik edərək onlara növbəti dərs ilində daha böyük uğurlar arzulayıb.

Tədbirdə Təhsil Şöbəsinin əməkdaşı Yusif İmanov və Qıvraq qəsəbə tam orta məktəbinin direktoru Mahmud Cavadov çıxış ediblər.

* * *

## Sədərək rayonu

***Ölkəmizin, eləcə də muxtar respublikamızın bütün təhsil ocaqlarının şagirdləri kimi, Sədərək məktəbliləri də Bilik Günündə tədris ilinin ilk gününün sevincini yaşayıblar. Xüsusilə birinci siniflərə qədəm qoyan məktəblilər və valideynlər üçün bu gün əsl bayram ab-havasında keçib.***

Sədərək kənd 1 nömrəli tam orta məktəbdə keçirilən tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov yeni dərs ili münasibətilə tədbir iştirakçılarını təbrik edib, onlara yeni-yeni nailiyyətlər arzulayıb. Həbib İbrahimov bildirib ki, bu gün ölkəmizdə təhsil sahəsində dövlət siyasətinin əsasını təhsilin uzunmüddətli dövr üçün əsas inkişaf istiqamətlərini müəyyən edən milli təhsil konsepsiyası və təhsil sisteminin inkişafını nəzərdə tutan dövlət proqramları təşkil edir. Müasir konsepsiya və proqramların əsas tələblərindən biri də milli-mənəvi və ümumbəşəri dəyərlərə dərindən yiyələnən, onları qoruyan və inkişaf etdirən, geniş dünyagörüşə malik olan, təşəbbüs və yenilikləri qiymətləndirməyi bacaran, təhsil aldığı ixtisas üzrə nəzəri və praktik biliklərə tamamilə sahiblənən, yenilikçi təfəkkürlü mütəxəssis hazırlanmasıdır. Odur ki, muxtar respublikada bu sahəyə xüsusi diqqət yetirilir, təhsilimizin möhkəm təməllər üzərində qurulmasına şərait yaradılır.



Qeyd edilib ki, ötən tədris ilində rayonda orta təhsilini başa vuranlardan 58 nəfəri ali məktəblərə qəbul üçün sənəd verib və 26 nəfəri yüksək nəticə göstərərək tələbə adını qazanıb. Abituriyentlərdən 2 nəfəri 500-dən, 2 nəfəri isə 600-dən yuxarı bal toplayıb. Orta ixtisas məktəblərinə 15, Heydər Əliyev adına Hərbi Liseyə 3 nəfər qəbul olunub. Bütün bunlar uğurlu göstəricilərdir. Ancaq bunlarla kifayətlənmək olmaz. Dövlətimizin təhsil sahəsinə göstərdiyi qayğını üzərlərində hiss edən müəllim kollektivi və şagirdlərimiz daha səylə çalışmalı, yeni tədris ilində daha böyük uğurlar qazanmalıdırlar. Dövlətimizin yüksək səviyyədə diqqət və qayğısına ancaq və ancaq gündən-günə artan uğurlarla cavab vermək olar.

Sonra müəllim və valideynlərin çıxışları olub, şagirdlər ilk zəngin sədaları altında məktəbə daxil olublar.



## Şahbuz rayonu

***Bilik Günü Şahbuz rayonunun ümumtəhsil məktəblərində də bayram əhval-ruhiyyəsi ilə qeyd olunub.***

Şahbuz şəhər 2 nömrəli tam orta məktəbdə keçirilən tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyev müəllim və şagirdləri əlamətdar gün münasibətilə təbrik edərək bildirib ki, təhsilə göstərilən dövlət qayğısının nəticəsində son illər rayonda 20 yeni məktəb binası pedaqoji kollektivlərin istifadəsinə verilib, məktəblərin maddi-texniki bazası möhkəmləndirilib. Təlimin yeni üsul və müasir metodlarından səmərəli istifadə etmək, şagirdlərə dərin və əsaslı bilik vermək məqsədilə rayonun ümumtəhsil məktəblərinə 188 ədəd müxtəlif markalı kompüter və 56 ədəd elektron lövhə verilib, kompüterlər internet şəbəkəsinə qoşulub. Yaradılmış şəraitin nəticəsində 2014-2015-ci tədris ilində rayonun ümumtəhsil məktəblərinin XI siniflərini bitirmiş 179 nəfər şagirddən 139 nəfəri ali məktəblərə qəbul üçün sənəd verib, onlardan 92 nəfəri, yəni 66 faizi ali məktəblərə qəbul olunub. Bu il 1 nəfər qızıl, 1 nəfər isə gümüş medala layiq görülüb. Qəbul olunanlar içərisində 6 nəfər məzun 600-700, 15 nəfər məzun isə 500-600 intervalında bal toplayıb. 11 illik təhsil bazasından 23, 9 illik təhsil bazasından 10 nəfər məzun orta ixtisas məktəblərinə, 18 nəfər şagird isə Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunub.

Qeyd edilib ki, 2015-2016-cı tədris ilində rayonun ümumtəhsil məktəblərinin birinci siniflərində 207 şagird təhsil alacaq. Ümumilikdə isə yeni dərs ilində rayonun ümumtəhsil məktəblərində təhsil alacaq 2028 şagirdin təlim-tərbiyəsi ilə 655 müəllim məşğul olacaqdır.

Sonra Rayon Təhsil Şöbəsinin müdiri Tarverdi Qurbanov və Şahbuz şəhər 2 nömrəli tam orta məktəbin direktoru Əvəz Həsənov çıxış edərək müəllim və şagirdləri Bilik Günü və yeni dərs ili münasibətilə təbrik edib, onlara uğurlar arzulayıblar.

# Ali təhsil ocaqlarında Bilik Günü münasibətilə tədbirlər keçirilib



***Ali təhsil almaq üçün Naxçıvan Dövlət Universitetini (NDU) seçən yüksək bal toplayan abituriyentlərin, xarici ölkə vətəndaşlarının sayı hər il daha da artmaqdadır. Bu il 960 bakalavr, 114 magistr, o cümlədən 31 nəfər 600 və 600-dən yuxarı bal toplayan gənc bu ali məktəbin tələbəsi adını qazanıb.***

Bu faktlar Naxçıvan Dövlət Universitetində 15 sentyabr – Bilik Günü münasibətilə keçirilən tədbirdə səsləndirilib.

Tədbiri ali təhsil ocağının rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov giriş sözü ilə açaraq müəllim və tələbələri yeni tədris ilinin başlanması münasibətilə təbrik edib, onlara uğurlar arzulayıb.

Rektor Azərbaycanda təhsilin inkişaf strategiyasından, ümummilli lider Heydər Əliyevin təhsil siyasətinin uğurlu davamından danışıb. Qeyd edib ki, Naxçıvan Dövlət Universiteti yarıməsrlik tarixi inkişaf yolu keçən, çoxillik ənənələrə söykənən, yüksəkixtisaslı mütəxəssislər yetişdirən, güclü maddi-texniki bazaya malik olan, beynəlxalq əlaqələrini günbəgün genişləndirən ali təhsil ocağıdır. 12 fakültə, 56 ixtisasın fəaliyyət göstərdiyi, 5 mindən çox tələbənin təhsil aldığı universitetdə müasir tədris korpusları, Tələbə sosial xidmət mərkəzi, Tələbə evi, Qonaq evi, idman meydançaları, müasir xəstəxana mövcuddur.

Universitetin tədris işləri üzrə prorektoru, dosent Surə Seyid "Bolonya prosesi: vəzifələr və perspektivlər" mövzusunda məruzə edərək xatırladıb ki, Naxçıvan Dövlət Universiteti 2009-cu ildən bolonya prosesinə qoşulub və 2012-ci ildən bu prosesin tətbiqinə başlanıb. Bu istiqamətdə bir sıra işlər görülüb, elektron təhsil şəbəkəsi yaradılıb. Məruzədə kredit sistemi əsasında təşkil olunmuş tədris prosesinin təşkilinin ümumi müddəaları, əsas səciyyəvi xüsusiyyətləri, sənədləşmə, qiymətləndirmə prinsipləri, kredit sistemində tədris-metodik təminat, tədris prosesindəki yeniliklər, yay məktəbinin təşkili qaydaları, tələbə və müəllimlərin mobilliyinin təmin olunması və digər məsələlər barədə məlumat verilib.

Tədbirdə 692 balla Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinin Hüquqşünaslıq ixtisasına qəbul olmuş Təranə İsmayılova, Fizika-riyaziyyat fakültəsində Riyaziyyat və informatika müəllimliyi ixtisası üzrə ali təhsil alacaq 687 bal toplamış Bətulə Əlizadə, 685 balla Tibb fakültəsinin Müalicə işi ixtisasının tələbəsi adını qazanan Rza Cəbiyev çıxış edərək ölkədə təhsilə yaradılan yüksək şəraitə, hərtərəfli dövlət qayğısına görə minnətdarlıq edib, müəllimlərinin etimadını doğruldacaqlarını bildiriblər.

Sonda 650-dən yuxarı balla universitetə qəbul olan 12 tələbəyə tələbə bileti və qiymət kitabçası, "Naxçıvan Ensiklopediyası" təqdim olunub.

Tədbirdə universitetin tarixi inkişaf yolunu əks etdirən slayd nümayiş etdirilib.

***Sentyabrın 15-də Naxçıvan Müəllimlər İnstitutunda da Bilik Günü və 2015-2016-cı tədris ilinin başlanması münasibətilə tədbir keçirilib.***

İnstitutun rektoru, professor Oruc Həsənli çıxış edərək yeni dərs ilinin başlanmasının hər bir ailənin həyatında əlamətdar mərhələ olduğunu bildirib, müəllim və tələbə heyətini təbrik edib. Rektor qeyd edib ki, tarixboyu öyrənmək, biliklərə yiyələnmək və onu tədris etmək müqəddəs əməl hesab olunub. Xalqımız daim elm öyrənməyi, təhsil almağı, gənc nəslin savadlanması üçün məktəbin rolunu yüksək qiymətləndirib. Elə buna görədir ki, xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycanın dövlətçilik təməlini qoyarkən onun əsas sütunlarından birinin təhsil olduğunu vurğulayıb, ölkəmizin milli təhsil strategiyasını yaradıb. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da Heydər Əliyev ideyalarının uğurla davam etdirilməsi təhsildə yeni və müasir mərhələnin başlanmasına səbəb olub.

Bildirilib ki, muxtar respublikada ali məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni tədris korpuslarının tikilməsi, müasir informasiya texnologiyalarının tətbiqi təhsil sahəsində uğurlu nəticələrin qazanılmasına, tələbələrin ixtisaslı kadr kimi yetişmələrinə imkan yaradıb. Yaradılan şəraitin nəticəsidir ki, hər il ali məktəblərə qəbul imtahanlarında muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrini seçən abituriyentlərin sayı artır. Builki qəbul imtahanlarında yüksək balla tələbə adını qazanmış abituriyentlərdən 300 nəfər Naxçıvan Müəllimlər İnstitutunda təhsil almağa üstünlük verib, ölkəmizin digər regionlarından bu ali təhsil ocağını seçənlərin sayında əvvəlki illərlə müqayisədə xeyli sayda artım müşahidə edilib.

Rektor deyib ki, bizim təhsilimizin məqsədi tələbələrə elm, bilik öyrətməklə yanaşı, həm də onları yüksək mənəviyyatlı, vətənpərvər və ixtisaslı gənclər kimi yetişdirməkdir. Unutmaq olmaz ki, Azərbaycanın gələcəyi bugünkü gənclərə etibar ediləcək. Odur ki, bu günün tələbələri müstəqil dövlətimizə, Vətənimizə və xalqımıza layiq mütəxəssislər kimi yetişməlidirlər.

Sonra çıxışlar olub.

**Xəbərlər şöbəsi**


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 705